# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 252 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 10 sentyabr 2021-ci il

№ 257

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2021-ci il 10 sentyabr
tarixli 257 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 252 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və Azərbaycan Respublikasının dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar (bundan sonra – qurum) tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən, o cümlədən tutulan xidmət haqlarından daxil olan vəsaitdən (bundan sonra – vəsait) istifadə qaydasını müəyyən edir.

1.2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, vəsait bu Qaydaya uyğun olaraq istifadə edilir.

1.3. Qurumun xəzinə hesabına köçürülmüş dövlət rüsumunun müvafiq hissəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 462 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin, habelə dövlət notariat ofislərinin xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları"na uyğun olaraq istifadə edilir.

1.4. Dövlət büdcəsindən maliyyələşən qurumların vəsaitindən istifadə ilə bağlı bu Qayda ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə" (bundan sonra – Əsasnamə) ilə tənzimlənir.

1.5. Vəsait dövlətin mülkiyyəti hesab olunur. Vəsait qurumun, habelə qurumun tabe olduğu dövlət orqanının sərəncamındadır və onun istifadəçisi (sərəncamçısı) dəyişdirilə bilməz.

1.6. Bu Qayda mövcud normativ hüquqi aktlara uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondlarının vəsaitlərinə şamil olunmur.

## 2. Vəsaitin formalaşdırılması, gəlirlər və xərclər smetasının təsdiq edilməsi qaydası

2.1. Vəsaitin toplanılması və təyinatı üzrə istifadəsi məqsədilə dövlət büdcəsindən maliyyələşən və dövlət büdcəsindən maliyyə yardımı alan qurumlar üçün xəzinə hesabı, digər qurumlar üçün bank hesabı açılır.

2.2. Vəsaitin yığılması və istifadəsi hər il növbəti il üçün proqnozlar əsasında hazırlanan və aşağıdakı qaydada təsdiq edilən gəlirlər və xərclər smetasına uyğun olaraq həyata keçirilir:

2.2.1. dövlət büdcəsindən maliyyələşən qurumlar üzrə – Əsasnaməyə uyğun təsdiq edilir;

2.2.2. digər qurumlar üzrə – hər il dekabr ayının 20-dən gec olmayaraq, qurumun tabe olduğu dövlət orqanı tərəfindən bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilən formaya uyğun təsdiq edilir.

2.3. İl ərzində bu Qaydanın 2.2.1-ci yarımbəndinə uyğun təsdiq olunan gəlirlər və xərclər smetasında nəzərdə tutulduğundan çox və ya az məbləğdə vəsait daxil olduqda, həmin smeta yenidən təsdiq olunur və vəsaitin istifadəsi Əsasnamənin 3.4-cü və 3.5-ci bəndlərinə uyğun olaraq həyata keçirilir.

2.4. İl ərzində bu Qaydanın 2.2.2-ci yarımbəndinə uyğun təsdiq olunan gəlirlər və xərclər smetasında nəzərdə tutulduğundan çox və ya az məbləğdə vəsait daxil olduqda, həmin smeta qurumun

müraciəti əsasında tabe olduğu dövlət orqanı tərəfindən yenidən təsdiq olunur və vəsaitdən istifadə edilir.

2.5. Bu Qaydanın 3.6-cı bəndinə əsasən qurumların tabe olduğu dövlət orqanlarının əməkdaşlarının vəzifə maaşlarına əlavələrin verilməsi üçün ayrılan vəsait həmin dövlət orqanlarının büdcədənkənar vəsaitlər üzrə gəlirlər və xərclər smetasında nəzərə alınır.

2.6. Vəsaitin bu Qaydanın 3.3-cü və 3.4-cü bəndlərinə uyğun olaraq istifadəsinə nəzarət qurumun tabe olduğu dövlət orqanı tərəfindən həyata keçirilir.

## 3. Vəsaitdən istifadə edilməsi qaydası

3.1. Qurum əldə etdiyi vəsaitdən müvafiq qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra sərəncamında qalan vəsaiti ilk növbədə fəaliyyətinin, o cümlədən işçilərinin əməkhaqqı fondunun maliyyələşdirilməsinə istifadə edir.

3.2. Qurumun bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan xərcləri maliyyələşdirildikdən sonra qalan vəsait qurumun işçilərinin, habelə qurumun tabe olduğu dövlət orqanının əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsinə, qurumun maddi-texniki bazasının möhkəmləndirilməsinə və elmi-texniki potensialının artırılmasına istifadə edilə bilər.

3.3. Vəsaitin qurumun işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən hissəsi aşağıdakı istiqamətlər üzrə xərclənir:

3.3.1. işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması;

3.3.2. işçilərin vəzifə maaşlarına əlavələrin verilməsi;

3.3.3. işçilərə maddi yardım göstərilməsi;

3.3.4. işçilərin məzuniyyət haqlarının və ezamiyyə xərclərinin ödənilməsi.

3.4. Qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədilə vəsait aşağıdakı istiqamətlər üzrə xərclənir:

3.4.1. malların (işlərin və xidmətlərin) alınması;

3.4.2. işçilərin əlavə təhsil alması;

3.4.3. maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində digər xərclərə.

3.5. Qurumun bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan xərcləri maliyyələşdirildikdən sonra qalan vəsaitin 40 faizədək olan

məbləği bu Qaydanın 3.3.1-ci və 3.3.2-ci yarımbəndlərində nəzərdə tutulmuş məqsədlər üçün, lakin hər ay üzrə qurumun işçilərinin aylıq vəzifə maaşının 2 (iki) mislindən çox olmamaqla nəzərdə tutulur.

3.6. Qurumun bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan xərcləri maliyyələşdirildikdən sonra qalan vəsaitin 50 faizədək olan məbləği normativ hüquqi aktlarla müəyyən edildiyi halda qurumun tabe olduğu dövlət orqanının əməkdaşlarının vəzifə maaşlarına əlavələrin və mükafatların verilməsi üçün, lakin hər ay üzrə həmin əməkdaşların aylıq vəzifə maaşlarının 2 (iki) mislindən çox olmamaqla ayrılır.

3.7. Qurumun bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulan xərcləri maliyyələşdirildikdən sonra qalan vəsaitin 10 faizədək olan məbləği bu Qaydanın 3.3.3-cü, 3.3.4-cü yarımbəndlərinin və 3.4-cü bəndinin maliyyələşdirilməsinə yönəldilir.

3.8. Qurumun işçilərinin ezamiyyə xərclərinin ödənilməsi "Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarına əsasən həyata keçirilir.

3.9. Publik hüquqi şəxs olan qurumun nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün vəsait yalnız "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə uyğun olaraq istifadə edilə bilər.

## 4. Aylıq vəzifə maaşına əlavənin hesablanması və ödənilməsi qaydası

4.1. Aylıq vəzifə maaşına əlavənin ödənilməsi ayda bir dəfə olmaqla, hər ay üçün növbəti ayın 20-dək, dekabr ayı üçün isə həmin ayın 25-i (dekabrın 25-i qeyri-iş gününə düşdükdə - növbəti iş günü) həyata keçirilir.

4.2. Bu Qaydanın 3.3.1-ci və 3.3.2-ci yarımbəndlərində nəzərdə tutulmuş vəsaitin cari ildə istifadə olunmayan hissəsi həmin ilin dekabr ayında qurumun işçilərinin, habelə onun tabe olduğu dövlət orqanının qərarına əsasən dövlət orqanının işçilərinin fərdi qaydada mükafatlandırılmasına və onlara maddi yardım göstərilməsinə, habelə bu Qaydanın 3.5-ci və 3.6-cı bəndləri nəzərə alınmaqla, aylıq vəzifə maaşlarına əlavələrin verilməsinə yönəldilə bilər.

4.3. Əmək məzuniyyəti, ödənişli yaradıcılıq və təhsil məzuniyyəti, həmçinin xidməti ezamiyyət dövrü işçinin hesabat ayındakı iş günləri kimi nəzərə alınaraq aylıq vəzifə maaşına əlavə ödənilir, lakin bu əlavə həmin məzuniyyət (ezamiyyət) vaxtı üçün orta əməkhaqqının hesablanması zamanı nəzərə alınmır.

4.4. Vəzifə maaşına əlavə aşağıdakı günlər üçün hesablanmır:

4.4.1. işçinin əmək qabiliyyətini müvəqqəti itirdiyi, həmçinin hamiləliyə və doğuşa görə məzuniyyətdə olduğu günlər;

4.4.2. işçinin qismən ödənişli sosial məzuniyyətdə və ödənişsiz məzuniyyətdə olduğu günlər.

4.5. Bu Qaydanın 4.4.1-ci yarımbəndində nəzərdə tutulan hallarda aylıq vəzifə maaşına əlavə orta əməkhaqqının hesablanması zamanı nəzərə alınır.

4.6. Əlavə hər bir işçinin aylıq vəzifə maaşına əmsal tətbiq edilməklə hesablanır.

4.7. Aylıq vəzifə maaşına əlavənin verilməsi üçün əmsal aşağıdakı düstura uyğun hesablanır:

$$\text{Ə} = \frac{\text{VMƏC}}{\text{VMC}}$$

Burada:

**Ə** – əmsal;

**VMƏC** – bu Qaydanın 3.5-ci və 3.6-cı bəndləri ilə müəyyən olunan məbləğ;

**VMC** – işçilərin (vakant ştat vahidləri istisna olmaqla) aylıq vəzifə maaşlarının məbləğlərinin cəmidir.

4.8. Əlavə ödənilən ayda aylıq vəzifə maaşı, iş günlərinin sayı, işçinin iş günlərinin sayı və əmsal tətbiq edilməklə aşağıdakı düstura uyğun hesablanır:

$$\text{VMƏ} = \frac{\text{AVM x İİG x Ə}}{\text{İG}}$$

Burada:

**VMƏ** – vəzifə maaşına əlavə;

**AVM** – işçinin aylıq vəzifə maaşı;

**İİG** – işçinin iş günlərinin sayı;

**Ə** – əmsal;

**İG** – iş günlərinin sayıdır.

## 5. Qurumun işçilərinin mükafatlandırılması

5.1. Qurumun işçilərinin kollektiv mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

5.1.1. işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;

5.1.2. mühüm dövlət tapşırıqlarının vaxtında yerinə yetirilməsi;

5.1.3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş bayram günləri, həmçinin digər əlamətdar hadisələrlə əlaqədar.

5.2. Qurumun işçilərinin fərdi mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

5.2.1. vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsi, səmərələşdirici təkliflər verilməsi, təşəbbüskarlıq göstərilməsi, işdə yeni forma və metodların tətbiqi;

5.2.2. rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;

5.2.3. normativ hüquqi aktların layihələrinin hazırlanmasında fərqlənməsi.

5.3. İşçilər xüsusi əhəmiyyətli vacib tapşırıqların, mürəkkəb işlərin yerinə yetirilməsi ilə əlaqədar, həmçinin layiqli işinə görə bayram və digər əlamətdar günlərdə qurumun rəhbəri tərəfindən birbaşa olaraq fərdi qaydada (birdəfəlik) mükafatlandırıla bilərlər.

5.4. İşin nəticələrinə görə verilən mükafatların məbləği işçinin fəaliyyətinin nəticələrindən asılı olaraq, qurumun rəhbəri tərəfindən müəyyən edilir.

5.5. Qurumun işçilərinin fərdi mükafatlandırılması məqsədilə vəsait qiymətli hədiyyələrin alınmasına da xərclənə bilər.

5.6. Qurumun işçilərinin fərdi mükafatlandırılması onların işlədikləri struktur bölmələrin rəhbərlərinin təqdimatı əsasında qurumun rəhbərinin əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilir.

## 6. Vəsaitin uçota alınması və hesabatların təqdim edilməsi

6.1. Qurum tərəfindən vəsaitin uçotu “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

6.2. Qurum vəsait üzrə gəlirlər və xərclər smetasının icrası barədə bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun olaraq rüblük

hesabat tərtib edir və hər rübdən sonrakı ayın 20-dək tabe olduğu dövlət orqanına təqdim edir.

## 7. Yekun müddəa

7.1. İşçilərə ödənilən aylıq vəzifə maaşına əlavədən və mükafatlardan gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı və icbari tibbi sığorta haqqı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, “Sosial sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tutulur.

"Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası"na

**1 nömrəli əlavə**

TƏSDİQ EDİRƏM

______________________________

(dövlət orqanının rəhbəri)

"_____" ___________ 20 ____ il

________________________________________________________

(qurumun adı)

## 20__ il üçün gəlirlər və xərclər smetası

| Gəlirlərin və xərclərin adı | | Sətir | Məbləğ (manatla) |
|---|---|---|---|
| **Sıra №-si** | **Cəmi gəlirlər** | **01** | |
| | o cümlədən | | |
| | | | |
| | | | |
| **Təsnifat kodu** | **Cəmi xərclər** | **02** | |
| | o cümlədən | | |
| | | | |
| | | | |

**Qeyd.** Smeta büdcə xərclərinin iqtisadi təsnifatının paraqraf, maddə və yarımmaddələrinə əsasən tərtib edilir.

“Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası”na

**2 nömrəli əlavə**

TƏSDİQ EDİRƏM

______________________________
(dövlət orqanının rəhbəri)

“_____” ___________ 20 ____ il

____________________________________________________________
(qurumun adı)

**20__ ilin ____ rübü üzrə artan yekunla**
**gəlirlər və xərclər smetasının icrası barədə rüblük**

**H E S A B A T**

(manatla)

| **Gəlirlər** | | **Smetada nəzərdə tutulmuşdur** | **Daxil olmuşdur** | **Kənarlaşma (+;-)** |
|---|---|---|---|---|
| **Sıra №-si** | **Cəmi gəlirlər** | | | |
| | o cümlədən | | | |
| | | | | |
| | | | | |
| **Xərclər** | | **Smetada nəzərdə tutulmuşdur** | **Xərclənmişdir** | **Kənarlaşma (+;-)** |
| **Təsnifat kodu** | **Cəmi xərclər** | | | |
| | o cümlədən | | | |
| | | | | |
| | | | | |

**M.Y.**

**Qurumun rəhbəri** ____________________

**Baş mühasib** ____________________